AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

**QƏRAR**

№ 050/370

**Bakı şəhəri** "14" avqust **2024-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-2024-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Liviya Dövlətinin Əl Cifara (Al Jifarah), Zəviyyə (Az Zawiyah), Benqazi (Benghazi), Əl Məric (Al Marj), Al-Butnan (Al-Butnan), Bayda (Bayda), Derna (Darnah), Əl-Cəbəl-əl-Əxdar (Al-Jabal-al-Akhdar) dairələrində dabaq, Fransa Respublikasının Oksitaniya (Occitanie), Yeni Akvitanya (Nouvelle-Aquitaine), Normandiya (Normandie), Mərkəz-Luara vadisi (Centre-Val de Loire), Overn-Rona-Alplar (Auvergne-Rhône-Alpes), Qrand Est (Grand Est), Reünyon (Reunion), İl-de-Frans (İle-de-France), Provans-Alp–Kot de Azür (Provence-Alpes-Côte d'Azur) regionlarında, Filippin Respublikasının Kapiz (Capiz) əyalətində, Almaniya Federativ Respublikasının Baden-Vürtemberq (Baden-Württemberg) vilayətində, İsveç Krallığının Qotland (Gotland) əyalətində, Amerika Birləşmiş Ştatlarının Miçiqan (Michigan), Massaçusets (Massachusetts) ştatlarında isə qeydə alınmış yüksək patogen quş qripi xəstəliyi aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Dabaq xəstəliyi üzrə:**

**1.1.1.** 2021-ci il 26 iyul tarixli 045/140 nömrəli qərarla Liviya Dövlətinin Əl Cifara, Zəviyyə, Benqazi və Əl Məric dairələrinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.2.** 2023-cü il 27 mart tarixli 014/265 nömrəli qərarla Liviya Dövlətinin Al-Butnan, Bayda, Derna, Əl-Cəbəl-əl-Əxdar dairələrinə tətbiq edilmiş məhdudiyyət.

**1.2. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.2.1.** 2021-ci il 20 dekabr tarixli 076/171 nömrəli qərarla Fransa Respublikasının Oksitaniya regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.2.** 2021-ci il 29 dekabr tarixli 079/174 nömrəli qərarla Fransa Respublikasının Yeni Akvitanya regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.3.** 2022-ci il 17 fevral tarixli 013/188 nömrəli qərarla Fransa Respublikasının Normandiya regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.4.** 2022-ci il 1 mart tarixli 016/191 nömrəli qərarla Fransa Respublikasının Mərkəz-Luara vadisi regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.5.** 2022-ci il 5 may tarixli 031/206 nömrəli qərarla Fransa Respublikasının Overn-Rona-Alplar regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.6.** 2022-ci il 19 sentyabr tarixli 055/230 nömrəli qərarla Fransa Respublikasının Qrand Est regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.7.** 2022-ci il 17 oktyabr tarixli 058/233 nömrəli qərarla Fransa Respublikasının Reünyon regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.8.** 2022-ci il 1 noyabr tarixli 062/237 nömrəli qərarla Fransa Respublikasının İl-de-Frans regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.9.** 2023-cü il 10 yanvar tarixli 001/252 nömrəli qərarla Fransa Respublikasının Provans-Alp–Kot de Azür regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.10.** 2023-cü il 23 yanvar tarixli 002/253 nömrəli qərarla Filippin Respublikasının Kapiz əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.11.** 2023-cü il 18 aprel tarixli 017/268 nömrəli qərarla Almaniya Federativ Respublikasının Baden-Vürtemberq vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.12.** 2023-cü il 6 iyul tarixli 031/282 nömrəli qərarla İsveç Krallığının Qotland (Gotland) əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.13.** 2023-cü il 18 dekabr tarixli 065/316 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Miçiqan ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.2.14.** 2024-cü il 15 mart tarixli 023/343 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Massaçusets ştatına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcədə regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** — **Qalib Əbdüləliyev**